**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**FƏLSƏFƏ VƏ HÜQUQ İNSTİTUTU**

*Əlyazması hüququnda*

**ŞÖLƏT ƏLÖVSƏT OĞLU ZEYNALOV**

# MÜASİR ŞƏRQ-QƏRB MÜNASİBƏTLƏRİ KONTEKSTİNDƏ SİVİLİZASİYALARIN DİALOQU VƏ ƏMƏKDAŞLIĞI
# (DİNİ-FƏLSƏFİ ASPEKT)

İxtisas: 7214.01 - Dinin tarixi və fəlsəfəsi

Fəlsəfə üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı – 2015**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Hüquq İnstitutunun "Dinşünaslıq və mədəniyyətin fəlsəfi problemləri" şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Fərman Qəhrəman oğlu İsmayılov**
*Fəlsəfə üzrə elmlər doktoru, professor*

**Rəsmi opponentlər:** **Məhəmməd Alı oğlu Balayev**
*Fəlsəfə üzrə elmlər doktoru, professor*

**İlkin Ənvər oğlu Əlimuradov**
*Fəlsəfə üzrə fəlsəfə doktoru*

**Aparıcı təşkilat:** **Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti** ("Sosial-siyasi elmlər" kafedrası)

Müdafiə "___"__________2015-ci il saat_____da Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Hüquq İnstitutu nəzdində elmlər doktoru və fəlsəfə doktoru elmi dərəcələri almaq üçün fəaliyyət göstərən D.01.115 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Bakı, Az-1143, H.Cavid prospekti, 115. Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Hüquq İnstitutu, IX mərtəbə, konfrans zalı.

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasında tanış olmaq olar.

Avtoreferat "____"____________2015-ci il tarixində göndərilmişdir.

**D.01.115 Dissertasiya Şurasının elmi katibi, fəlsəfə üzrə fəlsəfə doktoru:** **Sevinc Arif qızı Həsənova**

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Müasir dövr son dərəcə mürəkkəb və müxtəlif istiqamətli dərin dəyişikliklər ilə səciyyələnir. Bəşəriyyət hazırda elə bir səviyyəyə gəlib çatmışdır ki, onun gələcək taleyi və inkişafı səmərəli dialoqun təşkili və tərəfdaşlığa aparıb çıxara biləcək əməkdaşlıqdan çox asılıdır. Dünya ictimai fikrinin mütərəqqi nümayəndələri, ziyalılar və dövlət xadimləri bu obyektiv tələbatı dərk edərək onun həyata keçirilməsinə cəhd göstərir, onu bəşəriyyətin öz mövcudluğunu qoruyub saxlamasında zəruri şərti hesab edirlər. Əlbəttə, müasir dünyada münasibətlərin birmənalı anlaşılması və izahı mümkün deyildir. Belə ki, bir çox ideoloqlar və tədqiqatçılar Qərb kimi səciyyələndirdikləri sivilizasiyanın üstünlüklərini mütləqləşdirir və yaxud Şərq adlandırılan digər mədəni regionların özünəməxsusluğunu şişirdərək bu iki regionun sivilizasiyalarının bir-birinə qarşı durduğunu və hətta gələcəkdə onların toqquşmasının labüd olduğunu iddia edirlər. Halbuki, atom əsri və daha qorxulu dağıdıcı silahların mövcudluğu epoxasında salamat qalmaq, insanların xoşbəxtliyini təmin etmək, sivilizasiyaların, dinlərin, siyasi sistemlərin dinc yanaşı yaşamasından onlar arasında dialoq və əməkdaşlığa keçidindən başqa üçüncü bir yol mövcud deyildir.Bütün bunları nəzərə alaraq biz, problemin aktuallığının konkret ifadəsi kimi aşağıdakıları ümumiləşdirmişik:

**Birinci,** sivilizasiyaların dialoq və əməkdaşlığı mürəkkəb xarakterə malikdir; onun siyasi, dini, humanistik, antropoloji, məhəlli və beynəlmiləl xüsusiyyətləri vardır. Bu xüsusiyyətlərin inkişaf dinamikası isə həm pozitiv, həm də ki, neqativ tendensiyaların baş verməsini mütəmadi aktuallaşdırır. Belə ki, nəzəri fikir nə qədər ki, birgəyaşayışın optimal paradiqmasını təyin edə bilmədikcə həm Şərqdə, həmçinin Qərbdə qütbləşmə, konfrontasiya və toqquşma ehtimalı azalmayacaqdır. **İkincisi,** problem ümumilik, universallıq xüsusiyyətinə malikdir, yəni o bütün xalqlar və millətlərin strateji məqsədlərindən biri, bəlkə də ən ümdəsidir. Ona görə də humanitar elmlər, xüsusilə fəlsəfə onun məna və əhəmiyyətini bütün insanlara – hamıya və hər kəsə anlatmalıdır ki, nüvə təhlükəsi şəraitində birgəyaşayış və həmrəylikdən başqa çıxış yolu mövcud deyildir: ya nüvə fəlakəti, ya da sivilizasiyaların paralel mövcudluğu və inkişafı üçün əməkdaşlıq, üçüncü yol istisnadır. Nəzəri bir problem üçün, bundan daha vacib, daha aktual bir nəticə təsəvvür etmək çətin ki, mümkün olsun. **Üçüncü,** qloballaşma artıq hipoteza deyil, o gerçəklikdir. Lakin sivilizasiyaların, cəmiyyətlərin, insanların, dövlətlərin təmsil etdiyi ideyaların, dinlərin, sivilizasiyaların əməkdaşlığını təmin etmədən nə qloballaşma prosesi normal məcrada gedə, nə də ki, qlobal şüur formalaşa bilər. Dialoq və əməkdaşlıq fəlsəfəsinə əsaslanaraq Şərq-Qərb yaxınlaşması üçün real baza tərəflərin davranış modellərində lazımi təshih edilməsini zəruri edir ki,

bunsuz vəhdətə doğru yüksəliş ideyası həyata keçirilə bilməz. **Dördüncü,** araşdırılan problem ciddi humanist xarakteri daşıyır; çünki heç bir xalq "özündə və özü üçün" mövcud ola bilməz, ona görə də xalqlar arasında dialoq və əməkdaşlıq dünya miqyasında humanizm və insanpərvərliyin öztəsbitinə aparıb çıxara bilər. **Beşinci,** vəhdətə yüksəliş təbii instinktdir, bu proses də sivilizasiyalararası, dinlərarası dialoq və əməkdaşlıqdan keçir; bu mənada dialoq və əməkdaşlığa ideoloji çağırış deyil, insan təbiətinin özündən irəli gələn tələb kimi baxılmalıdır. **Altıncı,** sivilizasiyalararası dialoq və əməkdaşlıq dinamik prosesdir bu proses üçün təkamülə alternativ yoxdur. Prosesin obyektiv və subyektiv aspektləri vardır ki, bu da özünü konkret insanların fəaliyyəti və epoxanın məntiqindən və situasiyanın təbiətindən irəli gəlir; prosesdə zaman-zaman sapmalar, ziqzaqlar, durğunluq olsa da onun tendensiyası düzxəttlidir. **Yeddinci,** sivilizasiya, mədəniyyət və dinlərin birgəyaşayışı və paralel inkişafı üçün zəruri olan prinsip – tolerantlıqdır. Həmin prinsip dövrün məntiqi baxımından yeni keyfiyyət, yeni məna kəsb edir. XX əsrin 70-ci illərindən başlayaraq kommunikasiya vasitələrinin inkişafı, qloballaşma prosesinin intensivləşməsi, dünya miqyasında gedən de-mokratikləşmə meyilləri, Şərq ilə Qərb arasında mədəniyyətlərin qarşılıqlı təsirinin güclənməsi, beynəlxalq miqyasda humanitar əlaqələrin dərinləşməsi, ölkələrarası münasibətlərdə çox mühüm yeniliklər yaratdığı kimi onların fəlsəfi refleksiyasına da diqqəti artırmışdır. 2011-ci ilin 7-9 aprelində Bakıda keçirilmiş "Müasir dünyada mədəniyyətlərin müxtəlifliyi və dialoq fəlsəfəsi" mövzusundakı beynəlxalq konfransda qeyd edilmişdir ki, "sivilizasiyalararası dialoq" konsepsiyasının işlənib hazırlanması, müasir reallığın ən aktual məsələlərindən biridir. Çünki söhbət ümumbəşəri mövcudluq və inkişafın yeni bir modelinin tapılmasından gedir. Fikrimizcə, Azərbaycan məhz axtarılan etalonun təcəssümü kimi nəzərdən keçirilə bilər. Bakıda keçirilmiş II Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılışında çıxış etmiş Azərbaycan Respublikasının prezidenti İlham Əliyev bir daha bunu vurğulayaraq bildirmişdir ki, "biz hamımız istəyirik ki, dünyada dinlərarası, mədəniyyətlərarası münasibətlər sağlam zəmində həllini tapsın, əməkdaşlıq meyilləri güclənsin, xoşagəlməz halların qarşısı alınsın, ümumiyyətlə, dünyada sivilizasiyalararası dialoqun inkişafında müsbət meyillər üstünlük təşkil etsin"[1].

**Problemin işlənmə dərəcəsi**. Araşdırılan problem özünün işlənmə dərəcəsinə görə digər fəlsəfi problemlərdən əsaslı şəkildə fərqlənir. Şərq və Qərb sivilizasiyalarının qarşılıqlı münasibətlərinin başlanmasından indiyədək bu mövzuya filosoflar, tarixçilər, politoqlar, ilahiyyatçılar xüsusi diqqət

[1] Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bakıda II Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılışında nitqi. Azərbaycan qəzeti, 31.05.2013.

yetirmişlər. Zaman-zaman mövzuya marağın artması və azalmasının da şahidi oluruq. Bununla belə araşdırılan problemlə əlaqədar N.Danilevski, O.Şpenqler, A.Toynbi, P.Sarokin, A.Veber, M.Veber, K.Yaspers, S.Hantinqton və b. müəlliflərin əsərləri klassika hesab edilir[1]. Bu müəlliflər öz əsərlərində fərqli sivilizasiyalardan bəhs edərkən müxtəlif yanaşmalar, özünəməxsus metodologiyalar əsasında orijinal konsepsiyalar formalaşdırmışlar. Həmin əsərlərdə qiymətli və orijinal ideyalar irəli sürülür. Xüsusən də XX əsrin sonu və XXI əsrin əvvəllərində baş vermiş siyasi, sosial-ictimai, iqtisadi və s. proseslər sivilizasiyalararası, o cümlədən də dinlərarası dialoq və əməkdaşlıq probleminin təhlilini zərurətə çevirdiyindən mövzu ilə əlaqədar yeni tədqiqatlar meydana çıxdı[2].

Azərbaycanda bu problemin elmi-ədəbi aspektdən ilk sistematik araşdırılması görkəmli şərqşünas alim A.İmanquliyevanın adı ilə bağlıdır. 2010-cu ildə Bakıda keçirilmiş və onun 70 illik yubileyinə həsr olunmuş Beynəlxalq Simpoziumun materiallarında tədqiqatçının bu sahədəki böyük xidmətlərindən geniş bəhs olunmuşdur[3].

Ölkəmizin tanınmış filosofu Z.Quluzadə problemi fəlsəfə tarixi kon-

---

[1] Rüstəmov Y. Sivilizasiyaların qarşılıqlı münasibəti (S.Hantinqton). Səda nəşriyyatı, 2007, 144 s.; Вебер А. Избранное: Кризис европейской культуры. СПб., 1999; Вебер М. Аграрная история Древного мира. Москва: Канон Пресс-Ц, 2001, 560 с.; Вебер М. История хозяства. Город. Москва: Канон Пресс-Ц, 2001, 576 с.; Киселев С.Г. Основной инстинкт цивилизаций и геополитические вызовы России. Москва: Изд. "Известия", 2002, 368 с.; Сорокин П. Человек. Цивилизация. Общества. Москва: Политиздат, 1992 442 с.; Фукуяма Ф. Великий разрыв. Пер. с.анг. М. АСТ, 2004, 474 с.; Хантингтон С. Столкновение цивилизации. Пер. с англ. Т.Велимеева, Москва: АСТ, 2006, 571 с.; Ясперс К. Смысл и назначение истории: Пер. с. нем. Москва: Политиздат 1991, 527 с.

[2] Məhəmməd Xəlifə Həsən. Dialoq mədəniyyəti və metodologiyası/Tərcümə edən və redaktor: El-Vüsal Məmmədov. Bakı: 2011, CBS-228 s.; Məmmədzadə İ. Qloballaşma və müasirləşmə şəraitində fəlsəfənin aktuallığı haqqında. Bakı: Təknur, 2009, 226 s.; Şükürov A. Qlobalistika və ekoloji fəlsəfə. Bakı: Elm, 2001, 104 s.; Кваша Г, Курдляндский В. Рождение и гибель цивилизаций. Москва: 2004, 29 с.; Кулизаде З.А. Закономерности развития восточной философии XIII-XVI вв. (регион ислама) и проблема Запад-Востока. Баку, Елм, 1983, 283 с.; Мусульманская цивилзация. Энциклопедический словар. Сост. И.Тораваль. Москва: Лори, 1995, 614 с.; Колесников А.С. Философия компративистика и диалог культур. Россия и Грузия: диалог и родство культур: сборник материалов симпозиума. Выпуск 1/Под ред. Парцвания В.В. Спб: Санкт-Петербургское философское общество, Сайт Web-кафедра философской антропологии, 2003, с 185-205

[3] Aida İmanquliyevanın 70 illik yubileyinə həsr olunmuş Beynəlxalq İbnül-Ərəbi Simpoziumunun materialları. Bakı: "Elm", 2010, 624 s.

tekstində araşdırmış, XIII-XVI əsrlərdə Şərq fəlsəfəsinin bu yönümdə yerini və rolunu aşkara çıxarmışdır[1]. Azərbaycan fəlsəfi fikrinin digər nümayəndələrinin – İ.Məmmədzadənin, K.Bünyadzadənin, S.Məmmədəliyevanın, R.Uluselin, Y.Abdullayevin və başqalarının əsərlərində bizim araşdırdığımız mövzunun bir sıra tərəfləri işıqlandırılmışdır[2].

Akademik R.Mehdiyevin konseptual xarakterli kitab və məqalələrində də müasir Azərbaycan fəlsəfəsinin durumu və inkişafının strateji istiqamətləri müəyyənləşdirilmişdir. Onların sırasında ölkəmizin keçdiyi inkişaf yolunun ümumiləşdirilməsi və qazandığı yüksək nailiyyətlərin təhlili mühüm yer tutur. Bu kontekstdə sivilizasiyalararası dialoq və əməkdaşlığın Azərbaycan modelinin nəzəri strateji əsasları və konseptual müddəaları müəyyən edilmişdir[3].

Respublikamızda sivilizasiyalararası dialoq problemini tədqiq edən filosoflar sırasında prof. S.Xəlilovun əməyi xüsusi qeyd edilməlidir. Onun "Şərq və Qərb ümumbəşəri ideala doğru", "Sivilizasiyalararası dialoq" və sair kitablarında Şərq və Qərb arasında münasibətlərin tarixi təkamülü, onların müxtəlif fəlsəfi təlimlərdə nəzəri mənalandırılmasının əsas cəhətləri açılır, bu sivilizasiyaların hər birinə xas olan spesifik cəhətlər və üstünlüklər təhlil olunmuş, müasir şəraitdə sivilizasiyaların dialoqu və vəhdətinin zəruriliyi, ona nail olmağın yolları və digər məsələlərdən ətraflı bəhs olunmuşdur[4].

Problemə yaxınlıq baxımından respublikamızın tanınmış filosoflarından

---

[1] Кулизаде З.А. Закономерности развития восточной философии XIII-XVI вв. (регион ислама) и проблема Запад-Востока. Баку, Елм, 1983, 283 с.

[2] Məmmədzadə İ. R. Qloballaşma və müasirləşmə şəraitində fəlsəfənin aktuallığı haqqında. Bakı: Təknur, 2009, 226 s.; Bünyadzadə K. Şərq və Qərb: ilahi vəhdətdən keçən özünüdərk. Bakı: Nurlan, 2006, 242 s.; Bünyadzadə K. İslam fəlsəfəsi: tarix və müasirlik. Bakı: Çaşıoğlu, 2010, 154 s.; Ulusel R. Şərq və Qərb sivilizasiyalarının qarşılışlı əlaqəsi//Fəlsəfə və sosial siyasi elmlər. 2004, № 4, s. 41-49; Абдуллаев Я.А. Проблема человека в социокультурном контексте (переходный период) Баку, издв. Адилоглы .2002, 181 с.; Мамедов Н.М. Глобализация как современное состаяные общественного развития (Эпоха глобалных перемен). Москва: МГДА 2004, с.33-45.

[3] Mehdiyev R.Ə. Azərbaycan: qloballaşma dövrünün tələbləri. Bakı: "XXI-Yeni nəşrlər evi", 2005, 463 s.; Mehdiyev R.Ə. Qlobal inteqrasiya və Azərbaycanda fəlsəfi fikrin yenidən nəzərdən keçirilməsi. Xalq qəzeti, 5 may 2009; Mehdiyev R. İctimai və humanitar elmlər: zaman kontekstində baxış. Bakı: OSKAR NRM, 2010, 413 s.

[4] Xəlilov S.S. Şərq və Qərb: ümumbəşəri ideala doğru. Fəlsəfi etüdlər. Bakı: Azərbaycan Universiteti nəşriyyatı, 2004, 624 s.; Xəlilov S.S. Fəlsəfə: tarix və müasirlik (fəlsəfi komprotivistika). Bakı: Azərbaycan Universiteti nəşriyyatı, 2006, 420 s.; Xəlilov S.S. Sivilizasiyalararası dialoq. Bakı: "Adiloğlu" nəşriyyatı, 2009, 256 s.

olan R.Aslanovanın tədqiqatları ciddi maraq doğurur. Müəllifin "Qloballaşma və mədəni müxtəliflik", "Müasir dövlət və dövlətşünaslıq elmi" monoqrafiyalarında və digər əsərlərində qloballaşmanın mədəniyyətdə təzahürü, bu prosesdə mədəniyyətlərarası dialoq, mədəniyyətlərin qarşılıqlı təsirinin əsas meyilləri, prinsipləri və formaları təhlil edilmiş, mədəniyyətlərin inteqarsiyasında İslam dininin dialoji potensialı araşdırılmış, milli müstəqillik dövründə Azərbaycanın sivilizasiyaların dialoqu və inteqrasiyasının sabit məkanı kimi oynadığı mühüm rol aşkara çıxarılmışdır[1]. Digər Azərbaycan filosofu Y.Rüstəmovun "Sivilizasiyaların qarşılıqlı münasibəti" (S.Hantiqton)" kitabında müasir dövrdə sivilizasiyalararası münasibətlərdə baş verən dəyişikliklər, oxşar mədəniyyətlərin əməkdaşlığı, sivilizasiyaların toqquşmasına dair konsepsiyaların mahiyyəti və əsassızlığı, sivilizasiyaların ümumiliyi, gələcəyi və sair məsələlər araşdırılır[2]. Respublikamızın alimləri həm də sivilizasiyalararası münasibətlərin dialoqu və dini müstəvidə öyrənilməsinə geniş diqqət yetirirlər. Onların sırasında H.Hüseynovun "Qərb-Şərq münasibətləri xristian və İslam təfəkkürü baxımından" monoqrafiyası əhəmiyyətli yer tutur. Kitabda islam-xristian münasibətlərinə Şərqin maddi-mənəvi dəyərlərinə ikili standartlardan yanaşmağın əsassızlığı vurğulanır, müasir qloballaşma şəraitində dinlərarası dialoqun vacibliyi fikri əsaslandırılır. Sivilizasiyaların toqquşmasını israr edən təlimlərin ideoloji təxribat xarakteri açılır[3]. O cümlədən də, 2012-ci ildə nəşr edilmiş “Azərbaycanda dini tolerantlıq mədəniyyəti: tarix və müasirlik kitabında fəlsəfə elmləri doktoru S.Hüseynovun tədqiqat mövzumuzla bağlı dəyərli məqamlara toxunduğunu da qeyd etməmək olmaz[4].

Qeyd edək ki, elmi ədəbiyyatla dərindən tanışlıq bir daha sübut edir ki, sivilizasiyalararası dialoq və əməkdaşlıq probleminin müasir dini, fəlsəfi sistemlərdəki yeri və roluna dair məsələlərin çoxu problematika predmeti olaraq qalmaqdadır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın **obyektini** Şərq-Qərb problematikası, sivilizasiyaların qarşılıqlı münasibətlərinin öyrənilməsinin dini

---

[1] Aslanova R. İslam və mədəniyyət. Bakı: Azərbaycan Universiteti nəşriyyatı, 2002, 406 s.; Aslanova R.Qloballaşma və mədəni müxtəliflik. Bakı: Elm, 2004, 264 s.; Aslanova R. Müasir dövlət və dövlətşünaslıq elmi. Bakı: Aəzrnəşr, 2011, 440 s.

[2] Rüstəmov Y. Sivilizasiyaların qarşılıqlı münasibəti (S.Hantinqton). Səda nəşriyyatı, 2007, 144 s.

[3] Hüseynov H., Bəhərçi T. Qərb-Şərq münasibətləri xristian və İslam təfəkkürü baxımından. Bakı: Təknur, 2005, 442 s.

[4] Hüseynov S. Azərbaycanda dini tolerantlıq mədəniyyəti: tarix və müasirlik. Bakı, Təknur, 2012, 176 s.

və fəlsəfi aspektləri təşkil edir. Onun **predmeti** isə sözügedən sivilizasiyalar arasında dialoq və əməkdaşlıq probleminin Şərq və Qərb fəlsəfi, dini sistemlərində qoyuluşu və həllini araşdırmaqdır.

**Tədqiqatın məqsəd və vəzifəsi** sivilizasiyalararası dialoq və əməkdaşlığın strateji funksiyasını müəyyən etmək, dialoqun təşkilinin və əməkdaşlığın aparılmasının şərtlərini müəyyənləşdirməkdir. Məqsəd sivilizasiyalararası, eləcə də dinlərarası dialoq və əməkdaşlığın xalqlar, millətlər, dövlətlər üçün məna və əhəmiyyətini açmaq, bu vəzifəni yerinə yetirilməsindən irəli gələn nəzəri və praktik nəticələri ortaya qoymaqdır. Bu isə öz növbəsində problemlə əlaqədar kompleks nəzəri məsələlərin günün tələbləri səviyyəsində həll edilməsini tələb edir. Həmin məqsədə nail olmaq üçün aşağıdakı vəzifələr qarşıya qoyulmuş və həll edilmişdir:

- sivilizasiyalararası dialoq və əməkdaşlığın dini, mənəvi, tarixi, fəlsəfi, siyasi, humanistik cəhətlərinin müəyyən edilməsi;
- sivilizasiyalararası dialoq və əməkdaşlıq probleminin insan təbiətinin vəhdətə yüksəliş tələbindən irəli gəlməsi və ya onun antropoloji aspektinin açılması;
- problemin ən ümumilik xüsusiyyətinə malik olmasını müəyyən etmək və buna görə də onun fəlsəfi refleksiya baxımından həllinin göstərilməsi;
- Şərq və Qərb fəlsəfi və dini refleksiyalarda problemə münasibətdə fərqlərin ayırd edilməsi;
- problemin həlli və prosesin normal məcarada aparılması üçün dinlərin və din mənsublarının rolunun müəyyən edilməsi;
- dialoq və əməkdaşlığın qlobal şüurun formalaşmasında rolunu müəyyən etmək;
- qlobal şüurun təşəkkülü və inkişafı dünya düzəninin təbiətindən irəli gəldiyinə görə prosesin təşkilinin məntiqi zərurət olduğunu əsaslandırmaq;
- qoyulan problemin həllində Şərq və Qərb arasında bəzən ziqzaqlar, durğunluq və ya qarşıdurma meyilləri olsa da prosesin təkamülü üçün istiqamətin düzxətli olduğunu şərh etmək.

**Tədqiqatın elmi yeniliyi** onun məqsəd və vəzifələrilə müəyyən olunur:

- problemin reflektiv xarakterindən çıxış edərək Qərbdə və Şərqdə irəli sürülmüş fəlsəfi, dini təlimlərinin inkişaf dinamikasını və təkamül mərhələlərini müəyyən etmək;
- müasir Qərb və Şərq fəlsəfəsində sivilizasiyalararası dialoq və əməkdaşlıq prosesinin başlıca paradiqmasını müəyyən etmək;
- çağdaş dönəmdə sivilizasiyalararası dialoq və əməkdaşlığın qlobal strategiyasını təhlil etmək;
- sivilizasiyalararası münasibətlərin müasir dönəmdə əsas meyilləri və istiqamətlərini müəyyənləşdirmək və burada dinlərin rolunu göstərmək;

- problemə münasibətdə vəhdətə yüksəliş prinsipinin antropoloji faktor olduğunu göstərmək;

- müasir Azərbaycanın sivilizasiyalararası dialoq və əməkdşlığa verdiyi böyük töhfələri analiz etmək və Azərbaycan təcrübəsinin dialoq və əməkdaşlığın paradiqması kimi qəbul edilməsinin zəruriliyini əsaslandırmaq.

**Tədqiqatın elmi-praktik əhəmiyyəti**. Tədqiqat işində sivilizasiyalararası dialoq anlayışı obyektiv, sistemli-kompleks təhlil edilmiş və müasir dövrün fəlsəfi ideya istiqamətlərində bu prosesə elmi münasibət aydınlaşdırılmışdır. Dissertasiyada bir sıra kulturoloji, sosial fəlsəfə, fəlsəfə və din tarixinə aid mövzular yer aldığından, o bu yöndə aparılacaq tədqiqat mövzuları üçün baza rolunu oynaya bilər. Tədqiqat işi ali məktəblərin müvafiq tədris proqramlarında, kulturologiya, sosial fəlsəfə, fəlsəfə tarixi, dinşünaslıq, dinin tarixi və fəlsəfəsinə aid kurslarda istifadə edilə bilər. Tədqiqat materialları həm də ölkədə mədəniyyətin inkişafı prosesinin idarə olunmasında, Azərbaycanın dünya birliyi ölkələrinə inteqrasiyasının elmi əsaslarının işlənib hazırlanmasında, KİV-lər, habelə tələbələr, müəllimlər, din xadimləri və geniş oxucu kütləsinin istifadəsi üçün faktik material kimi istifadə oluna bilər.

**İşin aprobasiyası.** Dissertasiyanın əsas məzmunu müxtəlif məqalə, tezis və konfrans materiallarında çap edilmişdir. İş AMEA Fəlsəfə və Hüquq İnstitutunun Dinşünaslıq və mədəniyyətin fəlsəfi problemləri şöbəsində müzakirə edilmiş və müdafiəyə təqdim olunmuşdur.

**İşin strukturu.** Dissertasiya işi giriş, üç fəsil, səkkiz yarımfəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**Girişdə** mövzunun aktuallığı əsaslandırılmış, onun işlənilmə dərəcəsi, tədqiqatın məqsəd və vəzifələri, elmi yeniliyi, nəzəri-metodoloji əsasları, obyekti və predmeti, nəzəri və praktiki əhəmiyyəti müəyyənləşdirilmiş, işin aprobasiyası və strukturu barədə məlumat verilmişdir.

Tədqiqatın "**Sivilizasiyalararası münasibətlərin tarixi və dini-fəlsəfi aspektləri**" adlanan birinci fəsli üç yarımfəsildən ibarətdir**.** "**Sivilizasiyalararası münasibətlərin tarixi mənalandırılması**" adlanan birinci yarımfəslində "sivilizasiya", "Şərq-Qərb sivilizasiyaları", "dialoq", "sivilizasiyalararası dialoq", "sivilizasiyalararası əməkdaşlıq" anlayışlarının mahiyyətlərinin açıqlanması üçün tarixə, müxtəlif regionlarda yaşayıb-yaratmış filosof və mütəfəkkirlərin fikirlərinə istinad edilmişdir. Xüsusən də, sivilizasiya anlayışına dair müxtəlif mövqe və yanaşmalara diqqət etdikdə məlum olur ki, bu anlayış elmi-fəlsəfi ədəbiyyatda daha çox mədəni inkişafın müəyyən hissəsini və yaxud səviyyəsini ifadə etmək üçün istifadə olunur. Halbuki,

müasir fəlsəfi təlimlərdə sivilizasiya ilə mədəniyyətin münasibətləri birmənalı izah edilmir. Belə ki, onları tam eyniləşdirən, habelə birini digərinə qarşı qoyan baxışlar fərqləndirilə bilər. Rusiya alimi akademik Əbdüssalam Hüseynovun qeyd etdiyi kimi, o, "yüksək səviyyəli abstraksiya olub, çoxlu sayda empirik obyektləri özündə ümumiləşdirən bir məfhumdur"[1]. Sivilizasiyaya verilən başqa bir tərif də onun lokal səpkisi əsas götürülür. Lokal sivilizasiya dedikdə "Yer üzünün istənilən bir hissəsinin geniş ərazilərində məskunlaşmış və özünün mədəni inkişaf xüsusiyyətlərinə görə digər insan birliklərindən fərqlənən, tarixən meydana gəlmiş böyük insan birliyi, cəmiyyət" nəzərdə tutulduğu vurğulanır[2]. Lakin lokal sivilizasiya anlayışının özünün də fərqli anlamları ilə qarşılaşmış oluruq. Belə ki, XX əsr alman filosofu O.Şpenqler özünün "Avropanın qürubu" əsərində "sivilizasiya"nı mədəniyyətin son inkişaf mərhələsi kimi başa düşmüşdür.

Müasir dövrdə amerikalı tədqiqatçı S. Hantinqtonun sivilizasiyaya verdiyi tərifinə diqqət yetirsək görərik ki, ona görə "Sivilizasiya insanların ali mədəni birliyi və mədəni identiklikliyinin ən geniş səviyyəsi olub, insanları başqa bioloji varlıqlardan fərqləndirir"[3]. Sivilizasiyanı müəyyən edən ümumi obyektiv elementlərə gəldikdə isə o, buraya: dili, tarixi, dini, cəmiyyətdəki ənənələri, sosial institutları, eləcə də insanların özlərini subyektiv identifikasiya etmək qabiliyyətlərini də aid etmişdir. S.Hantinqton öz fikirlərində F.Braudelə əsaslanaraq qeyd etmişdir ki, "İmperiyalar yaranıb məhv olsalar da, hakimiyyətlər bir-birini əvəz etsələr də, sivilizasiyalar yaşayıb siyasi, sosial, iqtisadi və hətta ideoloji təlatümlərə sinə gərirlər"[4]. S.Hantinqtona görə müasir dövrdə mövcud olan bütün sivilizasiyalar təxminən min il bundan əvvəl meydana gəlmiş və ya Latın Amerikasında olduğu kimi buradakı sivilizasiyalar artıq tarix səhnəsində mövcud olmuş sivilizasiyaların "törəmə"ləridir. Sivilizasiyanı siyasi deyil, məhz mədəni varlıq hesab edən S.Hantinqtonun fikrincə, bunu müxtəlif sivilizasiyalarda və ya eyni bir sivilizasiya çərçivəsində müxtəlif siyasi quruluşların mövcud olması ilə də əsaslandırmaq olar[5].

Sivilizasiyalararası münasibətlərin tarixi mənalandırılması məsələsi rus fəlsəfi fikrində daha geniş müzakirə olunmuşdur. Bu baxımdan öncə, P.Çaadayevin, A.Xomyakovun, İ.Krievskinin, F.Dostoyevskinin baxışları

---

[1] Гусейнов А.А. О чем говорим, когда говорим о диалоге цивилизаций /Международная жизнь. №3, 2008, с.34-43

[2] Киселев С.Г. Основной инстинкт цивилизаций и геополитические вызовы России. Москва: Изд. "Известия", 2002, с.16

[3] Хантингтон С. Столкновение цивилизации. Пер. с англ. Т.Велимеева, Москва: АСТ, 2006, с. 49

[4] Yenə də orada, c.50

[5] Yenə də orada, c.51

diqqəti cəlb edir. Belə ki, onlar tarixi ilahi yaradılış hesab edərək, onun ilahi mənbədən ilahi məqsədə doğru hərəkət etməsi qənaətinə gəlmişlər. Bu münasibətlə ilk dəfə lokal sivilizasiyalar təlimini yaratmış N.Danilevskinin baxışları da olduqca maraqlıdır. Rus tədqiqatçısı S.Kiselyov qeyd edir ki, N.Danilevski hətta "P.Çaadayevin Avropa sivilizasiyasının dəyərlərinə aludə olaraq, öz vətəninin gələcəyinə inamsızlıqla yanaşmasını tənqid etmişdir"[1]. S.Kiselyovun fikrincə, N.Danilevski nəinki öz baxışlarında provaslav xristianlığa üstünlük vermiş, hətta A.Xomyakovun xəttini davam etdirərək, tarixi prosesə sivilizasiyalı yanaşmanı inkişaf etdirmişdir. S.Kiselyovun iddiasına görə məhz ilk dəfə olaraq N.Danilevski roman-german adlandırdığı Avropa sivilizasiyasının dünyada yeganə olması barədə fikirləri alt-üst edərək elan etmişdir ki, bəşəriyyətin başqa "müstəqil sivilizasiyalar"ı da mövcuddur.

Birinci fəslin "**Sivilizasiyalararası dialoq və əməkdaşlıqda din amili**" adlanan ikinci yarımfəslində qeyd olunur ki, müasir dövrdə sivilizasiyalararası münasibətlərdə dinlərin dialoqu xüsusi yer tutur və bütövlükdə bu sistemin ayrılmaz tərkib hissəsini təşkil edir. Hətta dinlərarası dialoqun real praktikası və burada qazanılan uğurlar bəzi sivilizasiyalararası dialoqun təkmilləşdirilməsi üçün müsbət nümunə hesab oluna bilər. Sivilizasiyalararası münasibətlərin digər sahələrində olduğu kimi, bu prosesin də tarixən həm əleyhdarları, həm də tərəfdarları çox olmuşdur. Belə ki, dinlərarası dialoq və əməkdaşlığa qarşı çıxanlar onu Qərbin Şərqə, xüsusən də müsəlman Şərqinə qarşı "yeni bir istismarçılıq siyasətinin yürüdülməsi" kimi qələmə verirlər. Bunu həm də ondan görmək olar ki, hətta sivilizasiyaların mövcud olduğu "...sonrakı tarixi dövrlərdə dünya dinləri meydana çıxdıqdan sonra (sivilizasiyalar) dini məzmun daşımağa, xristian və islam sivilizasiyası adlandırılmağa başlanmışdır"[2]. Odur ki, dini dünyagörüşdə sivilizasiyalararası dialoq və əməkdaşlığa münasibəti aydınlaşdırmaq üçün müvafiq dini dünyagörüşü tipinin mahiyyətindən çıxış etmək daha doğru olardı. Dinlərarası ziddiyyətləri qabartmaq niyyətində olanlar bu məqamı nəzərə almır, dinlərin müxtəlifliyini əsas inancların məzmunları ilə deyil, dinlərin stili, yaxud da ki, ruhu ilə əlaqələndirməyə cəhd göstərirlər ki, bu yanlışdır.

Dini dünyagörüşün öyrənilməsində Qərb və Şərq fəlsəfi baxışlarının mühüm rol oynadığı inkaredilməz faktdır. Hazırda bəşəriyyətin qarşısında duran ümumi məsələlərin həllində dinlərarası dialoq çox mühüm rol oynayır. Bəzən spekulyativ refleksiyaların təsiri altında (məsələn, amerikalı filosof U.Xokinq)

---

[1]Киселев С.Г. Основной инстинкт цивилизаций и геополитические вызовы России. Москва: Изд. "Известия", 2002, с.43

[2]Hüseynov H., Bəhərçi T. Qərb–Şərq münasibətləri xristian və İslam təfəkkürü baxımından. Bakı: Təknur, 2005, s.303

hətta, böyük dini dünyagörüşlərin qarşılıqlı təsir və əməkdaşlığı nəticəsində "ümumdünya dini"nin yaradılması ideyası irəli sürülür"[1]. Dinlərin əməkdaşlığına qarşı çıxanlar da vardır. Məsələn, danimarkalı ilahiyyatçı X.Kramer (1888-1965) iddia edirdi ki, "qeyri-xristian dinlərlə İncil arasında kəsişmə nöqtəsi mövcud deyildir"[2]. Beləliklə də o, dinlərarası dialoqa heç bir yer qoymurdu. Eyni mövqeni rus alimi V.Şoxin də dəstəkləyirdi. O, "dinlərin dialoqu"na inanmayaraq, onu "virtual gerçəklik" adlandırır. Müasir dövrdə irəli sürülmüş dinlərin dialoqu"nu F.Bekonun "bazar bütü" ilə eyniləşdirən tədqiqatçı bu cür "bazar" üçün sərfəli olan "...nominal xristianlığın ...imandan çox... rasional düşüncə qanunlarına zidd olan "xristian yoqu", "xristian dzeni", "xristian daosizmi" və başqa bu kimi deformasiyalar doğurduğu"nu bildirmişdir[3]. Bununla da əslində, V.Şoxin müxtəlif tipə mənsub dini dünyagörüşlərin sinkretik şəkildə "dialoq" adı altında mahiyyətlərinə zidd bir şəkil aldıqlarını vurğulayırdı. V. Şoxin dinlərarası dialoqun qeyri-mümkünlüyünü söyləyərkən bunu ilk növbədə qeyri-monoteist dini dünyagörüşləri nəzərdə tuturdu.

Rus tədqiqatçısı A.V.Juravski isə xristianlığın inkişaf tarixinə istinad edərək vurğulamışdır ki, "İnsan nəslinin vəhdəti eləcə də, tarixilik ideyasının, yəni bəşəriyyətin mərhələli inkişaf etməsinin ilk dini-mifoloji formada dərk edilməsi xristianlıq tərəfindən həyata keçirilmişdir"[4]. Xüsusən də, xristianlığın meydana gəldiyi arealın müxtəlif etnik və mədəni ünsürləri özündə ehtiva etdiyindən, nəinki antik dövrün sonlarında, eləcə də, "Orta əsrlərdə xristianmərkəzçilik formasında təzahür etmiş xristianlıq avropamərkəzçiliyin ideoloji əsası olmuşdur"[5]. Dinlərarası dialoq prosesinin tərəfdarları sırasında Şahzadə Çarlzı, Almaniyanın sabiq prezidenti Roman Hertsoqu, katolik ilahiyyatçısı Hens Kinqi, BMT-nin sabiq baş katibi Kofi Annanı, almaniyalı məşhur şərqşünasları Anna Mari Şimeli, Fritz Şteppatı və amerikalı şərqşünas Con Espozitonu və başqaları vardır. Onların adlarını misal göstərərək Məhəmməd Xəlifə Həsən qeyd edir ki, bunlardan, hətta ilahiyyatçı alim Hens Kinqin dinlərarası dialoq sayəsində ümumdünya əxlaqının yaranması ideyasının

---

[1] Самыгин СИ., В.И.Нечипуренко, И.Н.Полонская. Религиоведение: социология и психология религии. Ростов-на-Дону; "Феникс", 1996, с.51

[2] Yenə də orada, с.53

[3] Шохин В. "Диалог религии": виртуальное понятие и реалное значение – http://www.gumer. info/bogoslov_Buks/Relig/Shoch_DialRelig.php

[4] Журавский А.В. Христианство и ислам: Социокультурные проблемы диалога. Москва: 1990, с.4

[5] Yenə də orada, с.5

müəllifidir[1]. Belə ki, H.Kinq hesab edir ki, müasir dövrdə dinlərarası dialoq ümumdünya əxlaqının yaranmasına gətirib çıxaracaqdır. Onun fikrincə, dinlərdə ümumbəşəri dəyərlər təbliğ edildiyindən, nəinki dinə mənsub olanlar, hətta qeyri-dini təmayüllərin tərəfdarları da ümumbəşəri dəyərlər baxımından həmrəylik nümayiş etdirərək əməkdaşlıq edə bilərlər. Xüsusən də, xristian dininin digər dünya dinləri ilə dialoq aparmasının tərəfdan olan H.Kinq vurğulayır ki, "bu dialoqda tərəflərin heç birini inandığı etiqad prinsiplərindən vaz keçməyə məcbur etmək olmaz"[2].

Türk tədqiqatçısı Əhməd Qurucanın "İslamda dialoq və tolerantlıq" kitabından oxuyuruq ki: "Dini sahədə dialoq həm bir dinə mənsub qrupların, həm də fərqli dinlərə mənsub insanların inanc və düşüncələrini bir-birlərinə məcburi və ya qeyri-etik yollarla qəbul etdirmə təşəbbüsündə olmadan, ortaq məsələlər ətrafında tolerant şəraitdə danışa bilməsi, müzakirə edə bilməsi və əməkdaşlıq qura bilməsi deməkdir"[3].

Dinlərarası dialoqun zəruriliyi ideyası müasir dövrün tanınmış Qərb ilahiyyatçısı P.Tillix tərəfindən də hərtərəfli müdafiə olunur. Belə ki, o, mədəniyyətlərarası dialoq prosesini xristianlıq və dünya dinlərinin görüşməsi şəklində qoyur. Halbuki, "Sivilizasiyaların toqquşması" təliminin dini-siyasi və ideoloji istiqamət almasından danışan amerikalı politoloq S.Hantinqton yazır ki, "İslam sivilizasiyası bir çox əsrlər boyu "yəhudi-xristian dəyərlərinin" düşməni olmuş və bu gün də onların düşməni olaraq qalır"[4]. S.Hantinqtondan fərqli olaraq, fikrimizcə, islam dini özündən əvvəl mövcud olmuş təktanrılıq dinlərini dialektik şəkildə inkar etmişdir. Belə ki, bunu onun müqəddəs kitabı olan Qurana diqqət yetirdikdə də yəqin etmək olar. Burada göstərilir ki, yer üzündə yaşayan insanlar üç əsas kateqoriyaya bölünür. Bunlar müsəlmanlar, kafirlər/müşriklər (Allaha şərik qoşanlar) və kitab əhlidir. Bunun belə olmasında da ilahi bir məqsəd olduğu bildirilərək Quranda deyilir: "İstəyən iman etsin, istəyən kafir olsun" (Quran, 18: 29)[5]. Çünki İslama görə, "Dində məcburiyyət yoxdur" (Quran, 2: 265)[6]. Bu baxımdan İslamda "başqa dində olan"la "kafir" anlayışı sinonim deyildir. A.Q.Şevçenko qeyd edirdi: "Müsəlmanlara görə,

---

[1] Məhəmməd Xəlifə Həsən. Dialoq mədəniyyəti və metodologiyası/Tərcümə edən və redaktor: El-Vüsal Məmmədov. Bakı: 2011, s.186-187

[2] Yenə də orada, s.187

[3] Kurucan Ahmet. İslamda dialoq və tolerantlıq. Tərc. ed. Q.Ocaqlı, Xəzər Nəşriyyatı, 2008, s.18

[4] Hüseynov H., Bəhərçi T. Qərb–Şərq münasibətləri xristian və İslam təfəkkürü baxımından. Bakı: Təknur, 2005, s.307

[5] Qurani-Kərim. Ərəb dilindən tərcümə edənlər: Z.M.Bünyadov, V.Məmmədəliyev. Bakı: Qismət, 2008, 712 s.

[6] Yenə də orada.

xristianlar və yəhudilər tanrını öz üsulları ilə sevmək kimi ayrılmaz hüquqa malikdir, onlara zorla İslamı qəbul etdirmək olmaz"[1].

Birinci fəslin "**Dialoq və əməkdaşlıq fəlsəfi problem kimi**" adlanan üçüncü yarımfəslində qeyd olunmuşdur ki, dinlərarası, o cümlədən də, sivilizasiyalararası dialoq və əməkdaşlığın mahiyyətini şərh edərkən ona hər şeydən əvvəl fəlsəfi problem kimi yanaşılmasını zəruri hesab edirik. Hər bir fəlsəfi problemtək bu məsələ də özünün tarixi inkişafı müəyyən edilmədən mahiyyətinin açıqlanması qeyri-mümkündür.

"Dialoq" anlayışının etimoloji mənşəyi yunanca danışıq, söhbət etmək mənasını verən "dialogos" sözündən götürülmüşdür. Dialoqun bu ilk mənası bu gün də öz qüvvəsini saxlamaqdadır. Odur ki, müasir dövrdə də dialoqdan bəhs edərkən onun ünsiyyətin bir növü olduğu qeyd edilir[2]. Misirli mütəfəkkir Məhəmməd Xəlifə Həsənin "Dialoq mədəniyyəti və metodologiyası" kitabında dini və mədəni dialoqun eyni adlı ünsiyyət formaları olduğu göstərilir. Bununla müəllif Çarlz Kimbelin dialoqa verdiyi tərifə istinad etməklə, bunun dərin məzmuna malik olduğunu vurğulayaraq yazır: "Dialoq təkcə fikir mübadiləsi deyildir. O əsasən hansısa bir görüşün, mövqe və açıqlamanın ifadəsidir"[3].

Alman filosofu L.Feyerbax yazırdı ki, sübutu həyata keçirmək üçün iki şəxsin olması zəruridir. Bu prosesdə fikri irəli sürən tərəf ilə ona müqabil tərəf arasında əvvəlcə müəyyən ziddiyyətlilik özünü göstərir, sonra isə mübadilə gedişində o aradan qaldırılır, beləliklə də sübut baş tutur[4]. Azərbaycan tədqiqatçısı, f.e.d. A.Hacıyeva da dialoqu məhz anlama prosesinin baş verməsi mənasında qeyd edir ki, "Dialoq tərcümədən başlayır. Bu mənada tərcümə anlama probleminin tərkib hissəsi kimi müasir dünyanın əsas problemlərindən birinə çevrilir "[5].

Tədqiqatçılar dialoqun fəlsəfi statusunun məhz Qərb və Şərq sivilizasiyalarının müxtəlif dövrlərdəki fəlsəfi sistemləri tərəfindən müəyyən edildiyini dəfələrlə vurğulamışlar (4, 153)[6]. Beləliklə də, "Bu və ya digər fəlsəfi məktəbin meydana gəlməsinin tarixi qanunauyğunluğu fəlsəfənin inkişafında

---

[1] Шевченко А.Г. Ислам и христианство: исторический опыт и перспективы сотрудничество. Москва: Наука, 2004, с.17.

[2] Məhəmməd Xəlifə Həsən. Dialoq mədəniyyəti və metodologiyası/Tərcümə edən və redaktor: El-Vüsal Məmmədov. Bakı: CBS-2011, c.10

[3] Yenə də orada, s.10-11

[4] Уткин А.А. Глобализация: процесс и осмысление. Москва: Логос, 2002, s.296

[5] Hacıyeva A.Mədəni-tarixi irsin tarixində hermenevtikanın fəlsəfi və metodoloji əhəmiyyəti. Bakı, Adiloğlu, 2004, s.56

[6] Aslanova R. Qloballaşma və mədəni müxtəliflik. Bakı: Elm, 2004, s.153

qələbə çalmış alternativlikdən başqa bir şey olmadığı" aşkara çıxır[1]. Digər tərəfdən, fəlsəfi mədəniyyətin ayrılmaz keyfiyyəti olan fəlsəfi mahiyyətin özünün də məhz bu alternativlərin dialoqu prosesində yarandığı danılmaz reallıqdır. İrəli sürülən bu fikir bütün fəlsəfi sistemlərə aiddir, yəni "təkcə Avropa sistemi (Qərb fəlsəfəsi) ilə Asiya sistemi (Şərq fəlsəfəsi) arasındakı münasibətləri, həm də Avropa fikir tarixinin (eləcə də Şərq fikir tarixinin) öz daxilindəki dialoqu da ehtiva edir"[2].

V.İ.Samoxvalova yazır: "Sözün geniş mənasında götürülən dialoq elə bir universal münasibətdir ki, burada mövqelərin plüralizmi prinsipcə yeni mənaların yaranması rolunu oynaya bilir"[3]. M.Baxtin qeyd edirdi ki, "dialoq zamanı bir yanaşma digəri ilə qarşılaşır, sözün müəyyən mənasında onunla toqquşur, nəticədə bu yanaşmaların hər birinin məhdudluğu və birtərəfliliyi aradan qalxır"[4]. Dialoqda bu və ya digər tərəfin üstünlüyü yolverilməzdir, əks halda iştirakçılar arasında münaqişə vəziyyəti yaranır və dialoq uğursuzluğa düçar olur. Dialoqun baş tutması o deməkdir ki, bu prosesin iştirakçıları arasında birinin digəri ilə qarşılıqlı şəkildə uyğunlaşması özünü göstərir, nəticədə onların hər ikisinin orta statistik tolerantlığı yüksəlir[5].

Dissertasiyanın ikinci fəsli "**Müasir dini-fəlsəfi refleksiyalarda sivilizasiyalararası münasibətlərin paradiqma axtarışları**"adlanır. Bu fəslin "**Müasir Qərb dini-fəlsəfi yanaşmalarında sivilizasiyalararası münasibətlərin qiymətləndirilməsi**" adlanan birinci yarımfəslində qeyd olunmuşdur ki, müxtəlif lokal sivilizasiyaların müqayisəli tipologiyası və aralarındakı münasibət barədə refleksiyalar müasir Qərb fəlsəfəsinin dünya fəlsəfi fikir tarixinə verdiyi ən önəmli töhfələrdən biridir.

Qərb fəlsəfi fikrində sivilizasiyalar haqqında təlimin banisi O.Spenqler (1880-1936) hesab olunur. O, "Avropanın qürubu" adlı əsərində sivilizasiya və mədəniyyətlərə dair baxışlarını ifadə etmişdir. O.Şpenqler möhtəşəm mədəniyyətlərin müəyyən bir dövrdən sonra məhv olmasını məhz "Avropanın ölümü" timsalında sivilizasiya problemi kimi ifadə etmişdir. O.Şpenqlerin fikrincə, sivilizasiya istənilən bir mədəniyyətin inkişafında son mərhələ olaraq,

---

[1]История современной зарубежной философии: компаративистиский подход. Спб., 1997, с.39

[2] История современной зарубежной философии: компаративистискии подход. Спб., 1997, с.28

[3] Самохвалова В.И. Сознание как диалогическое отношение (М.М.Бахтин как философ) (Отв. ред. Л.А.Гоготишмили, П.С.Гуревич) Москва: Наука, 1992, с.190-205

[4] Бахтин М.М. Эстетика словесного творчества. Москва: искусство 1979, с.334

[5] Лекторский В.А. Эпистемология классическая и неклассическая. Москва: Едиториал УРСС, 2001, с.21-31

hər bir "mədəniyyətin "qaçılmaz taleyidir"[1]. O.Şpenqlerdən fərqli olaraq, müasir ingilis tarixçisi və sosioloqu A.C.Toynbi (1889-1975) ictimai tərəqqi anlayışını "tsiklik nəzəriyyə" ilə əvəz etməyin tərəfdarı olmuşdur. A.Toynbi çağırış-cavab ideyası əsasında müxtəlif sivilizasiyaların müqayisəli təhlilini aparmışdır. Buradan çıxış edərək o, sivilizasiyaları müxtəlif dünya dinləri (buddizm, iudaizm, xristianlıq və Islam) ilə birlikdə təqdim etmişdir. Çünki A.Toynbiyə görə, "Dünya dinlərinin dəyərləri ən ali dəyərlər olduğundan, dünya dinlərinin inkişafı elə tarixi prosesin inkişaf istiqamətləridir"[2].

Müasir alman filosofu K.Yaspersin (1883-1969) fəlsəfi baxışlarına diqqət edərkən onun vahid bəşəriyyət ideyasına qayıdışının həm ifrat avropasentrizmə, həm də qapalı mədəniyyətlər konsepsiyalarına qarşı olduğunu müəyyən etmək olar. Bu məqsədlə "zaman oxu" konsepsiyasını irəli sürmüş K.Yaspers ümumdünya tarixində bəşəri tarixin əsasını qoymuş müxtəlif, ayrı-ayrı mədəniyyətlərin fövqəltarixi kommunikasiyasını mümkün hesab etmişdir. Filosof qeyd edirdi ki,"Tarixi inkişafın Çin, Hindistan və Qərb kimi üç xətləri arasında paralellər apararaq, biz Avropanın ənənəvi olaraq iddia etdiyi üstün olmaq fikrindən tamamilə imtina etdik"[3].

Bütövlükdə Qərbdə komprativistlər əmindirlər ki, məhz fəlsəfə müxtəlif sivilizasiyalar arasında mövcud olan ziddiyyətləri yumşaldaraq, mədəni, iqtisadi, dini və s. sferalardakı münaqişələri azaldaraq "ümumdünya birliyi"ni yarada biləcəkdir. Bununla yanaşı, həm də qeyd edilir ki, Şərqə və Qərbə xas olan ideya və ideaların sintezi nəticəsində universal fəlsəfə yaradılması ideyası qəbuledilməzdir.

Dialoq fəlsəfəsinə böyük önəm verərək rus mütəfəkkiri V.Bibler qeyd edirdi ki, "Biz dialoqa mühüm, özünəməxsus, xüsusi idrak, təfəkkür kimi baxırıq"[4]. Onun fikrincə, insan hətta səssizcə, yəni fikrə dalaraq özü-özü ilə danışdıqda belə, düşünür, fikirləşir.

Alman personalizminin nümayəndəsi, E.Brunner isə dialoqun transedentliyindən çıxış etmişdir. E.Bruner də X.Tilikey kimi insanlararası münasibətlərdə tanrının rolunu mühüm hesab edərək daha da irəli gedib özünün irəli sürdüyü "Mən-Sən" dialoq modelində hətta xristianlığın irəli sürdüyü sevgi prinsipinin dünyəvi hakimiyyətin ədalət prinsipi ilə üst-üstə düşdüyünü iddia etmişdir.

---

[1] Киселев С.Г. Основной инстинкт цивилизаций и геополитические вызовы России. Москва: Изд. Известия, 2002, с.143

[2] Yenə də orada, c.155

[3] Ясперс К. Смысл и назначение истории: Пер. с. нем. Москва: Политиздат, 1991, с.89

[4] Библер В.С. Цивилизация и культура. Москва: 1993, с.14

Alman personalizmində Mədəniyyətlərarası dialoq mövzusu xüsusi əhəmiyyət kəsb edən bir məsələdir. Xüsusən də bu barədə Maks Şellerin fikirlərini iki dövrə ayırırlar. Belə ki, o yaradıcılığının ilkin dövründə ayrı-ayrı mədəniyyətləri tanrının dəyərlər səltənətinin fərqli imkanlarda olan ifadəsi, müxtəlif həyat stili kimi təsvir etmişdir. M.Şellerə görə Qərb mədəniyyəti iyirminci əsrdən başlayaraq yalnız hakimiyyət barədə olan biliyi, xüsusən də onun bir hissəsini, yəni qeyri-üzvi olan təbiət üzərində ağalığı mənimsəmişdir. Çin və Yunan mədəniyyətlərində maarifləndirici bilik inkişaf etdirildiyi təqdirdə, Hindistanda qurtulmaq barədə, xüsusən də, hakimiyyət barədə biliyin ikinci hissəsi olan öz cismi və iradələri üzərində ağalıq etmək biliyi əsasdır. Buna görə də, M.Şelerin fikrincə, ruhun bu tərəflərinin tarazlaşdırılması və qarşılıqlı təsir etmələri baş verməlidir. Bu baxımdan M.Şeler, müstəqil mədəni regionlar barədə düşünməyib, mədəniyyətlərarası dialoqun deyil, "qaçılmaz tale" kimi mədəniyyətlərin bir-birini qarşılıqlı tamamlamaları" tərəfdarı kimi yadda qalmışdır. M.Şelerin fikrincə, həm dəyərləri, həm də dəyərlərin daşıyıcıları kimi başqalarını yalnız qarşılıqlı təmas, birgə fəaliyyət, "əməli bənzətmə" vasitəsilə anlamaq olar[1].

Hətta postmodernizmdə də, P.Bart, M.Fuko, Y.Kristevoy, J.Derrida, P.de Mann, U.Eko, J.Liotar, J.Delez, F.Qvattari və başqalarının dünya mədəniyyətinin kütləvi ünsiyyət vasitələrinin, yeni beynəlxalq və iqtisadi münasibətlərin inkişafı nəticəsində aktiv beynəlmiləlləşmək prosesini yaradıcı, ən başlıcası dialoji bir şəkildə izah etməyə çalışdıqlarını görə bilərik.

İkinci fəslin "**Müasir Şərqdə sivilizasiyalararası dialoq və əməkdaşlıq probleminə dini-fəlsəfi münasibət**" adlanan ikinci yarımfəslində müəyyən edilir ki, sivilizasiyaların müasir tipoloji sxemlərində Çin, Hind və yaxın Şərq sivilizasiyaları da Avropa sivilizasiyası ilə yanaşı mədəniyyət və cəmiyyətin başlıca və müstəqil formaları kimi dərk edilməkdədir. Müasir Şərq və Qərb fəlsəfi fikrində sivilizasiyaların qarşılıqlı münasibətlərindən bəhs edərkən daha çox onların müqayisəli şəkildə öyrənilməsinə üstünlük verilir. Hind filosofu P.T.Racuya görə Şərq və Qərb sivilizasiyalarını öyrənmək üçün ilk növbədə müxtəlif dəyərləri özündə əks etdirən Qərb və Şərq fəlsəfi ənənələrini müqayisə etmək lazımdır. Ona görə də, "kişi" başlanğıclı" şəhər, texniki Qərbi, "qadın" başlanğıclı" aqrar, fəlsəfi Şərqlə birləşdirmək zəruridir". Buradan göründüyü kimi, hind filosofu əsil fəlsəfənin məhz Şərqə məxsus olduğu qənaətinə gəlir. O, sözügedən “birləşdirmək zərurəti "ndə də yoqa metodunun tətbiq edilməsinin tərəfdarıdır. P.T.Racuya görə məhz belə olduğu təqdirdə, fəlsəfə dinlə əməkdaşlıq edib Çində olduğu kimi, həqiqəti insanların əməllərində açıqlayacaqdır. Bu zaman mistik yaşantılara üstünlük verilib bəşəri problemlərə

[1] İsmayılov F. Müasir Qərb fəlsəfəsi. Azərbaycan Dövlət Nəşriyyatı. Bakı: 1991, s.31

ekzistensialist yanaşma tətbiq ediləcəkdir[1]. Hind filosofu Çatterciyə görə müxtəlif sivilizasiyalara aid fəlsəfi sistemlərin özünə görə həqiqi olduğunu, Şərqdə həm Qərb pozitivizminin, həm də Hind advayta vedantasının qəbul ediləbiləcəyini iddia edirdisə, Malkaniyə görə heç də onları bir nöqteyi-nəzər hesab etmək olmaz[2]. Onun fikrincə, Şərq və Qərb fəlsəfələri barədə vahid ideyalar sistemi kimi düşünmək hələlik "abstraksiyanın şişirdilməsi"ndən artıq bir şey deyildir. Çində "intellektual inqilab"ın ən nüfuzlu nümayəndələrindən biri olmuş Xu Şi (1891-1962) Şərq və Qərb sivilizasiyalarının bir-birini anlamaları üçün tarixi yanaşmanı zəruri hesab etmişdir. Onun fikrincə, həm Şərq, həm də Qərb insanlarının intellektual, fəlsəfi və dini fəaliyyətlərindəki bütün fərqlər analiz edilə bilən və çoxlu faktorlar nəticəsində meydana gəlmiş tarixi fərqlərdir[3].

XX əsr yapon filosofu X.Nakamura da "Şərq" və "Qərb" anlayışlarının ciddi elmi kateqoriyalardan daha çox metaforalar olduğunu iddia etmişdir. O, sivilizasiyaların inkişaf tarixlərindən gətirdiyi faktlar əsasında planetimizin ayrı-ayrı regionlarında müxtəlif tarixi dövrlərdə varlıq haqqında oxşar konsepsiyaların, analoji intellektual problemlərin və bunlara münasibətdə yaxın metodoloji variantların mövcud olduğunu vurğulayırdı[4]. "Dialoq-adaptasiya"nı Şərqdə çoxları, xüsusən də, R.Qandi, D.Çattopadhaya kimi mütəfəkkirlər Qərb mədəniyyəti və dili çərçivəsində gerçəkləşdirilən modernləşmənin Qərb nümunəsindəki "universal imperializm" kimi dəyərləndirmişlər[5]. Nəticədə Şərqdə "xalqın özünümüdafiə mövqeyi əsas tutulmuş"[6] bir sıra ideya-siyasi cərəyanlar meydana çıxmışdır ki, bunlardan biri kimi, panislamizm dini-siyasi ideologiyasını misal göstərə bilərik. Rus tarixçisi-professor Robert Landaya görə də, "XIX əsrin ortalarında Qərbin Şərqdəki müstəmləkə ekspansiyasına, onun hərbi-siyasi və mədəni-ideoloji fəaliyyətdə meydan oxumasına cavab olaraq, müsəlmanlar öz aralarında bütün ideya və başqa istiqamətli fərqli cəhətləri bir kənara qoyub, ayrı-ayrı cərəyanları, dini-siyasi təlimləri, sektaları

---

[1] Колесников А.С. Философия компративистика и диалог культур. Россия и Грузия: диалог и родство культур: сборник материалов симпозиума. Выпуск 1/Под ред. Парцвания В.В. Спб: Санкт-Петербургское философское общество, Сайт Web-кафедра философской антропологии, 2003, с.187

[2] Yenə də orada, c.187

[3] Yenə də orada, c.190

[4] Yenə də orada, c.194

[5] Yenə də orada, c.197

[6] Hüseynov H., Bəhərçi T. Qərb–Şərq münasibətləri xristian və İslam təfəkkürü baxımından. Bakı: Təknur, 2005, s. 95

və qardaşlıqları özündə birləşdirən panislamizmi yaratdılar"[1].

K.Bünyadzadəyə görə "bunlar,(moderinistlər) İslamı inkişaf etdirmək istəyənlər, onu orta əsrlərin keçmişindən çıxararaq modern dünyaya uyğunlaşdırmağı ən düzgün yol kimi görənlərdir"[2]. Müasir dövrdə müsəlman mütəfəkkirlərindən islahatçılara malaziyalı alim Seyid Məhəmməd Nakib əl-Attasın, fələstinli alim İsmail Farukinin, eləcə də Əbdülhəmid Ə.Əbu Süleymanın və Taha Cabir Əlvaninin adlarını sadalamış K.Bünyadzadə, islahatçıların bu qəbil "İslamlaşdırma" prosesinin modernistlərdən fərqli olaraq qloballaşma və qərbləşməyə əks bir proses olduğunu vurğulamışdır"[3]. Halbuki, islahatçılar da müsəlman sivilizasiyasına aid sadaladıqları böhranlı hallardan "Çıxış yollarından biri kimi... Qərbdə kifayət qədər inkişaf etmiş bilikləri İslam prinsipləri çərçivəsində, İslam metodologiyası əsasında və müsəlman cəmiyyətində tətbiq etməyi göstərirlər"[4].

Müsəlman sivilizasiyası ilə yanaşı, müsəlman fikrinin də müasir dövrdə böhranlı vəziyyətdə olduğunu iddia edən və bundan çıxış yolunu fəlsəfi müstəvidə axtaran filosof və mütəfəkkirlər vəhdətçilər adlanırlar. K.Bünyadzadə beləlırini iki qrupa bölmüşdür. O, birinci qrupa Əbul-Həsən Əli Nədvin, Seyid Hüseyn Nəsr, Kənan Gürsoy və başqalarını aid edir. Fikrimizcə, tanınmış İran alimi və ictimai-siyasi xadimi d-r Əbdül Hüseyn Zərrinqubun (1922-1999) baxışları da vəhdətçilərin bu qoluna aid etmək olar. Belə ki, o, hələ 50-60-cı illərdə mədəniyyət və fəlsəfənin ümumbəşəriliyindən çıxış edərək, "Qərb və Şərq sivilizasiyaları arasında ziddiyyətli münasibətlərin konfliktlərlə deyil, "ümumbəşəri" prinsiplərlə əvəz olunmasını təbliğ" etmişdir[5].

Qərbdəki "sivilizasiyaların toqquşması" konsepsiyasına qarşı müsəlman aləmindən "sivilizasiyalararası dialoq" təşəbbüsünün irəli sürülməsi, dünyanın informasiya vasitələrində və elmi dairələrdə özünün aktuallığı ilə seçilən problem olaraq günümüzə qədər qalmaqdadır. Belə ki, dialoq ideyasının müəllifi kimi, M.Hatəmi qeyd edirdi ki, müsəlman ölkələrində "İslam vətəndaş cəmiyyəti"nin əməli olaraq yaradılması və bunun sayəsində qardaşlıq münasibətlərinin daha da gücləndirilməsi çox vacibdir. Ona görə də sivilizasiyalararası dialoq prosesində tam anlaşmanın əldə olması naminə mərkəzi rolu intellektual elitanın oynayacaqdır. Məhz bunun sayəsində müasir beynəlxalq arenada ayrı-ayrı dövlətlər özlərinin hüquqlarını bərpa edəcəkdirlər.

---

[1]Hüseynov H., Bəhərçi T. Qərb–Şərq münasibətləri xristian və İslam təfəkkürü baxımından. Bakı: Təknur, 2005, s. 95

[2] Bünyadzadə K. İslam fəlsəfəsi: tarix və müasirlik. Bakı: Çaşıoğlu, 2010, s.48-49

[3] Yenə də orada, s.55

[4] Yenə də orada, s.57

[5] Hüseynov H., Bəhərçi T. Qərb–Şərq münasibətləri xristian və İslam təfəkkürü baxımından. Bakı: Təknur, 2005, s. 98

M.Hatəmiyə görə, "Nəzəriyyədə həqiqət axtarışına mane olan istənilən doqmatizmdən azad olmaq demək olub, xüsusən də, minlərlə insanların ağrı və acılarını sərf nəzər etmiş, ədalətin təmin edilməsinə və istismardan azad edilməsinə çağırışları yalnız demoqoqiya kimi qəbul edən və heç bir fəlsəfi əsas və izahları olmayan postmodernist mütəfəkkirlərin ifrat riyakarlığından yaxa qurtaracaqdır"[1].

Dissertasiya işinin üçüncü fəsli "**Müasir dövrdə sivilizasiyalararası dialoq və əməkdaşlığın təzahür xüsusiyyətləri**" adlanır. "**Qloballaşma prosesində sivilizasiyalararası dialoq və əməkdaşlıq**" adlanan birinci yarımfəsildə qeyd olunmuşdur ki, qloballaşmanın ictimai həyatın digər sferaları ilə müqayisədə mədəniyyətlərarası münasibətdə daha qabarıq ifadə olunduğu aşkarlanmışdır. Xalqımızın ümummilli lideri Heydər Əliyev demişdir: "Dünya inkişafının indiki mərhələsinin başlıca meyilləri mədəni inteqrasiya və qloballaşmadır"[2]. Bu şəraitdə milli mədəniyyətlər arasında oxşar və ümumi cəhətlər çoxalır, onların mübadiləsi çox güclənir. Digər tərəfdən qloballaşma milli özünəməxsusluq və milli identiklik üçün müəyyən təhlükə törədir. Buna görə də, "Müasir dövrdə ən aktual problemlərdən biri milli özünütəcrid və qloballaşma arasındakı optimal nisbətin tapılmasıdır"[3]. Qloballaşmanı siyasət, iqtisadiyyat və mədəniyyət dünyasının qarşılıqlı surətdə asılılığı kimi müəyyən edən İ.Məmmədzadə vurğulayır ki, "bu (qloballaşma) həm də müxtəlif maraqların riskli və münaqişəli oyunudur... Əsası isə odur ki, bu əməkdaşlıq və rəqabət birliyindən kənarda qalmayasan"[4].

Ümumilikdə götürdükdə qloballaşma prosesinin necə anlaşılmasından asılı olmayaraq onun baş verdiyi şəraitdə "ümumdünya sivilizasiyanın vəhdəti tezisinin yanlış olmadığı getdikcə dərk edilməkdədir".[5] Bu məsələ ilə əlaqədar S.Xəlilov haqlı olaraq qeyd edir ki, "Şərq və Qərb vəhdəti kontekstində siyasiləşmiş qloballaşma prosesinin əvəzinə, qlobal sivilizasiya ideyasının inkişaf etdirilməsi daha çox elmi əsaslara malikdir"[6].

Müasir fəlsəfi araşdırmalarda komparativist metodologiyanın humanitar

---

1 Хатами М. Ислам, диалог и гражданское общество. Москва: РОССПЭН, 2001, с.64

2 Əliyev Heydər. Azərbaycan XXI əsrin və üçüncü minilliyin astanasında. Bakı: BDU Nəşriyyatı, 2001, s.7

3 Xəlilov S.S. Sivilizasiyalararası dialoq. Bakı: "Adiloğlu" nəşriyyatı, 2009, s.65

4 Məmmədzadə İ. Qloballaşma və müasirləşmə şəraitində fəlsəfənin aktuallığı haqqında. Bakı: Təknur, 2009, s.226

5 Колесников А.С. Философия компаративистика и диалог культур. Россия и Грузия: диалог и родство культур: сборник материалов симпозиума. Выпуск 1, s.204

6 Xəlilov S.S. Sivilizasiyalararası dialoq. Bakı: "Adiloğlu" nəşriyyatı, 2009, s.39

biliyin kommunikativlik xüsusiyyətindən çıxış edərək "dialoqun müasir fəlsəfi təfəkkürün və tarixi-fəlsəfi prosesin norması kimi təsdiq" etməsi, müasir dövrdə sivilizasiyalararası münasibətlərin qlobal strategiyasından irəli gəlir[1]. Beləliklə komparativist mövqedən yanaşma, müxtəlif sivilizasiyaların nəzəri irsini ifadə edən fəlsəfə tarixini ayrı-ayrı mədəniyyətlərin dialoqu tarixi kimi nəzərdən keçirmiş olur. Lakin dialoq prosesi təkcə universallaşdırma ilə məhdudlaşmayaraq, etnik, linqivistik, mədəni və dini kontekstslər üzrə də dərinləşməyi tələb edir ki, bu da yalnız "mədəniyyəti intellektlə möhkəmləndirib mədəniyyətlərarası fəlsəfi ünsiyyəti onların öz orijinallıqlarını və təkrarolunmazlıqlarını saxlamaq şərti ilə mümkündür"[2].

Bu fəslin "**Sivilizasiyalararası dialoq və əməkdaşlıqda vəhdətə yüksəliş**" adlı ikinci yarımfəslində qeyd edilir ki, Şərq və Qərb sivilizasiyalarının dialoqu və qarşılıqlı təsiri uzun tarixi dövrü əhatə edir. Lakin hər bir konkret mərhələdə onun məzmunu və istiqamətləri özünəməxsus formada olmuşdur. Buna müvafiq olaraq həmin problemlərin fəlsəfi fikirdə inikası da birmənalı olmamış, dəyişkən və dinamik səciyyə daşımışdır. Bir çox filosoflar öz təlimlərində Qərb və Şərq sivilizasiyalarını bir-birinə qarşı qoymuş və onların münaqişə vəziyyətində olduğunu göstərmişlər. Bununla yanaşı, dünyanın sözügedən iki böyük regionu əhalisinin dialoqu və qarşılıqlı surətdə bir-birini anlamasının zəruriliyini qeyd edən baxışlar da çox olmuşdur. Sonuncuların əsas mövqeyini Herman Hessenin aşağıdakı fikrindən hasil etmək olar: "Şərq ilə Qərb arasında ciddi və məhsuldar qarşılıqlı anlaşmanın olması, siyasi və sosial həyatın çox böyük, lakin yerinə yetirilməmiş tələbidir, bu, həm də zəruri mənəvi tələbatdır. Bizim dövrümüzdə artıq söhbət yaponları xristian etməkdən və yaxud avropalıları buddaçılara və adoçulara çevirməkdən getmir. Bizim borcumuz və arzumuz hər hansı bir etiqada müraciət etməməkdə, mümkün qədər böyük və geniş açıqlığa nail olmaqdır. Şərqin və Qərbin müdrikliyində biz artıq düşmən, bir-birilə mübarizə edən qüvvələri deyil, ümumi həyatın gah o tərəfə, gah da bu tərəfə yönəlmiş olduğu qütblərini görürük"[3].

Dialoq fəlsəfəsinin bütün aspektləri bir-biri ilə sıx əlaqədar olduğundan sivilizasiyalararası dialoq və əməkdaşlıq prosesində də fəlsəfi anlamda ali, humanist və ümumbəşəri məqsədlər baxımından yalnız bu aspektlərin dolğun

---

[1] Киселев С.Г. Основной инстинкт цивилизаций и геополитические вызовы России. Москва: Изд. "Известия", 2002, с.190

[2]Колесников А.С. Философия компаративистика и диалог культур. Россия и Грузия: диалог  и родство культур: сборник материалов симпозиума. Выпуск 1/Под ред. Парцвания В.В. Спб: Санкт-Петербургское философское общество, сайт wеб-кафедра философской антропологии, 2003, с.191

[3] Восток-Запад, исследование, переводы, публикации Москва: Наука 1982, с.217

vəhdəti arzuedilməndir. Tarixə və müasir reallığımıza müraciət etsək, müxtəlif konfliktlərin səbəbinin ksenofobiyaya cavab reaksiyası olduğunu görə bilərik. Bəşər tarixində sosial münasibətlərdəki dözümsüzlük halları bir çox müharibələrin, dini və ideoloji qarşıdurmaların əsasında durub onları şərtləndirir. Bundan əlavə, başqa növ ziddiyyətlər, o cümlədən də iqtisadi münasibətlər sahəsində baş verən ziddiyyətlər onunla sıx bağlıdır.

Tarixdə sivilizasiyalararası dialoq bu və ya digər formada həmişə mövcud olub, hətta bir-birini əvəz etmiş siyasi idarəetmə formalarının Şərq despotizmindən Afina demokratiyasına qədər bütün müxtəlifliklərinə baxmayaraq, məhz sivilizasiyalararası dialoq nəticəsində onların bu sahədə çoxlu ümumi cəhətlərinin olduğunu görə bilirik. Buna misal kimi müxtəlif lokal sivilizasiyalarda dövlət idarəetmə sistemləri və hüquqi normaların strukturları arasındakı oxşarlıqları göstərmək olar. Xüsusən də müxtəlif lokal sivilizasiyaların hər birində "azad şəhər"lər statuslu sənətkarlıq, ticarət şəhərləri statusunun olması bizə bunları sivilizasiyalararası paralelliyə nümunə hesab etməyə imkan verir[1]. Beləliklə, bəşər tarixinə nəzər yetirərkən vəhdət amilinin tarix boyu sivilizasiyalar arasında ən həssas şəkildə olsa da mövcudluğu danılmazdır.

"**Sivilizasiyalararası dialoq və əməkdaşlığın Azərbaycan paradiqması** adlı sonuncu" yarımfəsildə müəllif diqqəti, ölkəmizin bu prosesdəki rolu və yerinə yönəltmişdir. Burada qeyd olunur ki, Azərbaycan tarixən həm yerləşdiyi regionda, həm də qlobal, sivilizasiyalararası miqyasda gedən mühüm proseslərə ciddi təsir göstərmək ənənəsinə malik bir ölkədir. Keçən əsrin 90-cı illərinin əvvəlində ikinci dəfə dövlət müstəqilliyinə qovuşmuş Azərbaycan Respublikası tarixən oynadığı "Şərqin qapısı" rolunu daha da möhkəmləndirdi. Ölkəmiz Şərq-Qərb sivilizasiyaların hər ikisinin daşıyıcısı olmaqla, onların vəhdətini təcəssüm etdirir. Bu münasibətdə Ulu Öndər Heydər Əliyevin aşağıdakı fikri diqqəti cəlb edir: "Ölkəmiz dünya miqyasında geostrateji əhəmiyyətə malik olan əlverişli coğrafi mövqeyindən, zəngin təbii ehtiyatlarından və böyük potensialından istifadə edərək, Şərq ilə Qərb arasında körpü rolunu səmərəli surətdə həyata keçirməyə qadirdir"[2].

S.Xəlilov yazır:"Həqiqətən də bu gün Azərbaycan təkcə Şərqdən Qərbə və Qərbdən Şərqə gedən yolların baş keçidi deyil, habelə siyasi və iqtisadi maraqların, dinlərin, mədəniyyətlərin, sivilizasiyaların da qovuşduğu və bir-

---

[1] Кузык Б.Н., Ю.В.Яковец. Цивилизации: теория, история, диалог, будущее. В двух томах. Том I. Теория и история цивилизаций. Москва: Институт экономических стратегий. 2006, с.577

[2] Əliyev Heydər. Azərbaycan XXI əsrin və üçüncü minilliyin astanasında. Bakı: BDU nəşriyyatı, 2001, s.8

birini qarşılıqlı surətdə tamamladığı siyasi-iqtisadi və mədəni-mənəvi mərkəzə çevrilmişdir. Bu mənada Azərbaycan həm Şərq, həm də Qərb dəyərlərini ehtiva edir" [1]. Akademik R.Mehdiyev yazır: "Prezident İlham Əliyevin siyasi fəlsəfəsi bundan ibarətdir ki, bütün xalqlar, bütün dinlərin nümayəndələri bir-biri ilə sıx ünsiyyət saxlasınlar, problemləri açıq müzakirə etsinlər, öz fikirlərini sərbəst bildirsinlər. İndi Azərbaycan müxtəlif mədəniyyətlər və sivilizasiyalar arasında dialoqa dair sanballı tədbirlər keçirilməsi üçün ənənəvi məkana çevrilmişdir"[2].

Müasir cəmiyyətimizdə mədəniyyətlərarası dialoqun təşkili və idarə olunması sahəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Heydər Əliyev Fondunun Prezidenti, Milli Məclisin deputatı Mehriban Əliyevanın çoxşaxəli uğurlu fəaliyyəti müstəsna rol oynayır. Belə ki, İ.Əliyevin təşəbbüsü ilə 2011-ci il 7-9 apreldə Bakıda 102 dövlətin və 10-dan çox beynəlxalq təşkilatın nümayəndələrinin iştirakı ilə Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun uğurla həyata keçirilməsi bunu bir daha sübut edir. Dövlət başçısının sərəncamı əsasında Azərbaycan Respublikasında 2011-ci ildən başlayaraq hər iki ildən bir Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun təşkil edilməsi nəzərdə tutulmuşdur. Onun əsas məqsədi ölkəmizin İslam dünyası ilə Qərb sivilizasiyası və eləcə də digər mədəniyyətləri təmsil edən xalqlar arasında dialoqun və etimadın möhkəmləndirilməsində mühüm rolu nəzərə alınmaqla, müxtəlif mədəniyyətlər arasında əməkdaşlıq üçün qlobal platformasının təsis edilməsi və Azərbaycan xalqının tolerant mədəniyyətinin, tarixi ənənələrinin beynəlxalq aləmə tanıdılmasıdır. Azərbaycanda dini və milli zəmində vəziyyətin çox yaxşı olduğuna və dinlər-arası dialoqun praktik nöqteyi-nəzərdən gücləndirilməsi işinə Azərbaycanın öz töhfəsini verməsi baxımından prezident İlham Əliyev qeyd etmişdir: "Bir daha vurğulamaq istəyirəm ki, biz Bakının, Azərbaycanın dinlərarası dialoqun, bir növ, mərkəzinə çevrilməsinə də çox böyük ümidlərlə baxırıq"[3].

Beləliklə Azərbaycan tarixən böyük sivilizasiyaların, dinlərin və mədəniyyətlərin qovşağında yerləşən bir ölkə olduğundan, onun bu istiqamətlərin hər birində toplamış olduğu təcrübə təkcə milli baxımdan deyil, həm də dünya miqyasında böyük əhəmiyyətə malikdir. Prezident İlham Əliyev və Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın Şərq və Qərb dünyası arasında yeni yaranan müasir platformanın formalaşdırılması

[1] Xəlilov S.S. Sivilizasiyalararası dialoq. Bakı: "Adiloğlu" nəşriyyatı, 2009, s.21

[2] Aslanova R. Müasir dövlət və dövlətşünaslıq elmi. Bakı: Azərnəşr, 2011, s.249

[3] Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Dünya dini liderlərinin sammitinin açılış mərasimində çıxışı. Dövlət və din. May-iyun 2010 3 (17), s.19-22.

uğurunda səyləri və respublikamızda keçirilən dünyamiqyaslı forumların, konfransların, tədbirlərin uğurla baş tutması onu göstərir ki, Azərbaycan nümunəsi sivilizasiyalararası dialoq və əməkdaşlıq üçün bir paradiqma kimi qəbul edilməkdədir.

Dissertasiya işinin **Nəticə** hissəsində tədqiqat zamanı ayrı-ayrı fəsillərdə araşdırılmış məsələlərə dair başlıca qənaətlər ümumiləşdirilmiş, müəyyən tövsiyələr və təkliflər öz əksini tapmışdır.

**Dissertasiyanın əsas müddəaları müəllifin aşağıdakı məqalələrində əksini tapmışdır:**


1. Orta əsrlərdə İslam Şərqi ölkələrində dini-fəlsəfi təlimlər tarixi. AMEA Folklor İnstitutu, Elmi Axtarışlar (Folklorşünaslıq: Filologiya, fəlsəfə, tarix, incəsənət və nəzəri aspektləri) XX. Bakı, “Səda”, 2006, s.187-191;

2. Müsəlman şərqində fəlsəfənin formalaşmasına antik elmin və fəlsəfənin təsiri. AMEA Folklor İnstitutu, Elmi Axtarışlar (Folklorşünaslıq: Filologiya, fəlsəfə, tarix, incəsənət və nəzəri aspektləri) XXV. Bakı, “Səda”, 2006,s.257-263;

3. Dini dünyagörüşlərin dialoqu və əməkdaşlığı problemi (tarixi-fəlsəfi təhlil). BSU. Humanitar elmlərin öyrənilməsinin aktual problemləri (Ali məktəblərarası elmi məqalələr məcmuəsi). Bakı, 2010, s. 359-366;

4. Диалог и сотрудничество цивилизаций как философская проблема. XXI век: Итоги прошлого и проблемы настоящего. Межвузовский сборник научных трудов (международный выпуск). Выпуск 13. Пенза, 2010, s. 79-83;

5. Sivilizasiyalararası dialoq və əməkdaşlığın Azərbaycan paradiqması. ADMİU. Mədəniyyət dünyası (Elmi-nəzəri məcmuə) XXIV. Bakı, 2012, s.74-81;

6. Sivilizasiyalararası dialoq müasir Qərb fəlsəfəsi kontekstində. AMEA FSHİ. Elmi əsərlər (Beynəlxalq elmi-nəzəri jurnal) №2 (19). Bakı, 2012, s.174-181;

7. Sivilizasiyalararası dialoq və əməkdaşlığın təşəkkül və inkişafında din amili. BDU İlahiyyat fakültəsinin Elmi məcmuəsi, №18, dekabr, 2012, s.117-128;

8. Sivilizasiyalararası dialoq və əməkdaşlığın hərəkətverici qüvvəsi – qloballaşma. “Qloballaşma şəraitində kulturoloji innovasiyalar və sosial-mədəni inkişaf” adlı Beynəlxalq konfransın materialları. 21-22 dekabr 2012. Bakı, “Təknur”, s.74-77;

9. Şərq təfəkküründə sivilizasiyalararası əməkdaşlıq həyati problem kimi. AMEA FSHİ.(YUNESKO-nun təsis etdiyi “Ümumdünya Fəlsəfə Günü” nə həsr olunmuş “Qərb fəlsəfəsini necə dərk edirik” mövzusunda Beynəlxalq Elmi–nəzəri konfransının matereallları. Baki. 28 noyabr 2012) Bakı-“Təknur”-2012 səh. 147-77;

10. Диалог и сотрудничество между цивилизациями как условие человеческого существования. Гілея: Науковий вісник. Збірник наукових праць. Випуск 72(№5). Київ, 2013, s.338-343

**Шолат Аловсат оглы Зейналов**

## Восток и Запад в контексте современного диалога и сотрудничества цивилизаций (религиозно-философический аспект)

### Резюме

Диссертация состоит из введения, трёх глав, заключения и списка использованной литературы.

Во введении отмечается актуальность исследования, определяется объект, цель и задачи работы, указывается научная новизна, практическая ценность и методология исследования.

Первая глава диссертации «История взаимоотношений цивилизаций и их религиозно-философические аспекты» подразделяется на три параграфа. В первом параграфе первой главы работы, ссылаясь на доводы и рассуждения философов и мыслителей, а также на исторический материал, рассматривается основное содержание некоторых понятий. Во втором параграфе первой главы «Религиозный фактор в диалоге и сотрудничестве между цивилизациями» указывается, что на современном этапе истории человечества диалог между различными религиями играет большую роль и является составным элементом процесса диалога между цивилизациями. В третьем параграфе «Диалог и сотрудничество как философическая проблема» рассматривается основное содержание и сущность диалога и сотрудничества между цивилизациями. Кроме того отмечается, что это прежде всего является философической проблемой. Во второй главе диссертации под названием «Поиски парадигмы возникновения межцивилизационных отнощений в современных религиозно-философических рефлексиях» рассматривается проблема диалога и сотрудничества в доводах и рассуждениях западных мыслителей, а так же постановка этого вопроса в восточной религиозно-философической литературе. В третьей главе диссертации под названием «Особенности проявления межцивилизационного диалога и сотрудничества в современных условиях» рассматриваются проблемы диалога и сотрудничества цивилизаций в условиях глобализации. Второй параграф главы посвещается проблемам восхождения цивилизаций к единству. Наконец, в последом параграфе рассматривается вопрос об азербайджанской парадигме диалога и сотрудничества различных цивилизаций и религий.

В заключении диссертации обобщаются научные выводы, которые выдвинуты в главах и параграфах диссертационной работы, указаны концептуальные пути относительно решения поставленной проблемы.

**Sholat Alovsat Zeynalov**

## The East and the West in a context of modern dialogue and cooperation of civilizations (religious and philosophic aspect)

### Summary

The dissertation consists of an introduction, three chapters, conclusion and bibliography.

In the introduction, notes the relevance of the investigation, determined by the object, purpose and objectives of the work and indicated scientific novelty, practical value and methodology of the investigation.

The first chapter of the dissertasion "The history of relations between civilizations and their religious and philosophical aspects" is divided into three sections. The first paragraph of the first chapter, referring to the arguments of philosophers and thinkers, as well as historical material, and considered the main content of some concepts. In the second paragraph of the first chapter, "The religious factor in dialogue and cooperation among civilizations" indicates that at the present stage of human history, the dialogue between different religions plays an important role and it is an integral part of the process of dialogue between civilizations. In the third section, "Dialogue and cooperation as a philosophical problem" is considered the main content and the essence of dialogue and cooperation among civilizations. Also notes that, it is primarily a philosophic problem. In the second chapter of the dissertation entitled "The search for the emergence of inter-civilizational paradigm relations in modern religious and philosophical reflection of the problem of dialogue and cooperation in the arguments and reasoning of Western thinkers, and the second chapter is devoted to the formulation of the question in the Eastern religious and philosophic literature. In the third chapter of the dissertation entitled "Peculiarities of the inter-civilizational dialogue and cooperation in modern conditions" deals with the problems of dialogue and cooperation among civilizations in the context of globalization. The second section of the chapter is devoted to the problems of civilizations ascent to unity. Finally, in the last section discusses the paradigm of Azerbaijani dialogue and cooperation between different civilizations and religions.

In conclusion of the dissertation summarized the research findings, which pushed into chapters and sections of the dissertation and given conceptual paths relative to the solution of the problem.

AMEA-nın mətbəəsində çap olunub
Tiraj-100

**Национальная Академия Наук Азербайджана**
**Институт Философии и Права**

*На правах рукописи*

**Шолат Аловсат оглы Зейналов**

# ВОСТОК И ЗАПАД В КОНТЕКСТЕ СОВРЕМЕННОГО ДИАЛОГА И СОТРУДНИЧЕСТВА ЦИВИЛИЗАЦИИ (РЕЛИГИОЗНО-ФИЛОСОФИЧЕСКИЙ АСПЕКТ)

Специальность: 7214.01- История религии и философии

**АВТОРЕФЕРАТ**

Диссертации на соискание ученой степени доктора
философии по философии

**Баку 2015**